საქართველოს
სახალხო დამცველი
Gürcüstan Xalq Müdafiəçisi

# Gürcüstan Xalq Müdafiəçisi
# Etibar etməklə tərbiyə edilmə və reinteqrasiya üzrə dövlət yarımproqramlarının tənzimlənməsi haqqında

“Müvəqqəti və ya daimi olaraq öz ailə mühitindən məhrum edilmiş və ya öz ən yaxşı maraqları üçün bu cür mühitdə qala bilməyən uşaq dövlət tərəfindən xüsusi olaraq müdafiə edilmək və yardım almaq hüququna malikdir” (BMT-nin Uşaq hüquqları konvensiyası (CRC), maddə 20(1).

## Etibar etməklə tərbiyə edilmə üzrə yarımproqram nədir?

Etibar etməklə tərbiyə edilmə üzrə yarımproqram uşağa qayğı göstərilməsinin alternativ formalarından biridir. O, dövlətlə qəbul edən ailə arasında bağlanılmış müqavilə əsasında qəbul edən ailə tərəfindən yetkinlik yaşına çatmamış uşağa qulluq və tərbiyəsini nəzərdə tutur.

## Etibar etməklə tərbiyə edilmə üzrə yarımproqramların hansı növləri mövcuddur?

Etibar etməklə tərbiyə edilmənin əsas növü qeyri-qohumluq etibar etməklə tərbiyədir, lakin benefisiarların əhəmiyyətli hissəsi qohumluq və təxirəsalınmaz (uşağın təxirəsalınmaz etibar etməklə tərbiyə edilməyə yerləşdirilməsi barədə qərar qəbul edildikdən 90 təqvim günündən artıq olmayaraq) etibar etməklə tərbiyə edilmə üzrə yarımproqrama qoşulmuşdur.

## Etibar etməklə tərbiyə edilmə üzrə yarımproqramın benefisiarı kim ola bilər?

Etibar etməklə tərbiyə edilmə üzrə yarımproqramın benefisiarı dövlətlə qəbul edən ailə arasında bağlanılmış müqavilə əsasında, etibar etməklə tərbiyə olunması üçün qəbul edən ailəyə verilən 18 yaşına qədər şəxs ola bilər.

## Qəbul edən ailə kim ola bilər?

Analıq/atalıq yetkinlik yaşına çatmamış şəxsi etibar etməklə tərbiyə etmək istəyən (o cümlədən, təxirəsalınmaz etibar etməklə tərbiyə təqdirində) və öz yaşayış yeri üzrə qeydiyyata alınması məqsədilə qəyyumluq və qayğı orqanına müraciət edənGürcüstan vətəndaşı, Gürcüstanda statusa malik olan vətəndaşlığı olmayan şəxs və ya daimi olaraq Gürcüstanda yaşayan xarici ölkə vətəndaşı ola bilər.

## Uşağın etibar etməklə tərbiyəyə qoşulması barədə qərarı kim qəbul edir?

Yetkinlik yaşına çatmamış şəxsin etibar etməklə tərbiyə üzrə yarımproqrama qoşulması barədə qərarı qəbul etmək səlahiyyəti qəyyumluq və qayğı orqanlarına verilir. Rayon qəyyumluq və qayğı şurası (bundan sonra – regional şura) tərəfindən etibar etməklə tərbiyə edilmə barədə qərar sosial işçi tərəfindən uşağın ehtiyacları və yetkinlik yaşına çatmamış şəxsi etibar etməklə tərbiyə etmək istəyən şəxslərin imkanları barədə aparılmış tədqiqat və hazırlanmış rəy əsasında qəbul edilir. Qeyd edilən müddəa təxirəsalınmaz etibar etməklə tərbiyə hallarına aid deyil.

## Uşağın etibar etməklə tərbiyəyə qoşulması barədə qərar necə qəbul edilir?

Yetkinlik yaşına çatmamış şəxsin etibar etməklə tərbiyə üzrə yarımproqrama qoşulması prosesində sosial işçinin uyğunluq barədə rəyi olduqca əhəmiyyətli rol oynayır. Rəy hazırlandığı zaman aşağıdakı prinsiplərə riayət olunmalıdır: uşağın və qəbul edən ailənin cinsi və sağlamlıq vəziyyəti ilə uyğunluğu; yetkinlik yaşına çatmamış şəxsin

yaxın etniki, dini və mədəni mühitdə tərbiyə olunmasının zərurəti; uşağı etibar etməklə tərbiyə etmək istəyən şəxslərin ailəsində uşaqların sayı (yeddidən artıq olmamalıdır): 10 yaşa çatmış yetkinlik yaşına çatmamış şəxsin yarımproqrama qoşulması ilə bağlı razılığı; və - qardaşın, bacıların və/və ya qardaşların ayrılmasının yolverilməzliyi, bu onların maraqlarına uyğun olduğu hallar istisna olmaqla; etibar etməklə tərbiyə edilənlə analıq/atalıq arasında yaş fərqinin nəzərə alınması (ən azı 16 yaş).
Qeyd edilən rəyin məzmunundan irəli gələrək, yerli qəyyumluq və qayğı orqanı uşağın etibar etməklə tərbiyə olunması üçün analığa/atalığa təklif verir. Təxirəsalınmaz etibar etməklə tərbiyə halı istisnadır. Bu sonuncuda uşağın verilməsi barədə qərarı regional şuranın sədri sosial işçi tərəfindən hazırlanmış rəy əsasında verir.

## Uşağın etibar etməklə tərbiyə edilməsi haqqında müqavilə

Uşağın etibar etməklə tərbiyə edilməsi haqqında müqavilə aşağıdakıları əhatə etməlidir: uşağa qayğının və onun tərbiyə olunma şəraiti; analığın/atalığın hüquq və vəzifələri; qəyyumluq və qayğı orqanının, eləcə də etibar etməklə tərbiyə edilənin hüquq və vəzifələri; tərəflərin məsuliyyəti; müqaviləyə xitam verilmənin şərtləri.

## Etibar etməklə tərbiyə üzrə yarımproqrama qoşulmuş benefisiarın hüquqları

Etibar etməklə tərbiyə üzrə yarımproqrama qoşulmuş benefisiar beynəlxalq və ya daxili dövlət sənədləri ilə təsdiq edilmiş hüquq və azadlıqlardan istifadə edir. Etibar etməklə tərbiyə edlən uşaqlar zorakılıq və digər növ qeyri-müvafiq davranışdan, əmək istismarından, yoxsulluq və qeyri-müvafiq həyat səviyyəsindən qorunmaq, təhlükəsiz və fiziki/əqli inkişaf üçün lazım olan tərbiyə şəraitinə malik olmaq, bioloji ailəsi ilə mütəmadi olaraq münasibətdə olmaq, keyfiyyətli təhsil və səhiyyəni əldə etmək hüququna malikdirlər.

## Qəbul edən ailənin vəzifələri

Qəbul edən ailənin öhdəsinəetibar etməklə tərbiyə edilənə qarşı aşağıdakı vəzifələr qoyulur: etibar etməklə tərbiyə edilənə onun fərdi inkişaf planına uyğun olaraq qayğı göstərmək; etibar etməklə tərbiyə edilən üçün normal ailə mühitini yaratmaq; etibar etməklə tərbiyə edilən üçün zərərli şərait və mühitin yaranması barədəqəyyumluq və qayğı orqanına məlumat vermək; etibar etməklə tərbiyə edilənin onun qanuni nümayəndəsi və digər qohumları ilə münasibətini dəstəkləmək; etibar etməklə tərbiyə edilənlə birlikdə yaşamaq.

## Qəbul edən ailənin maliyyə təminatının tənzimlənməsi

Etibar etməklə tərbiyə edilənə qayğının göstərilməsi xərcləri Gürcüstan dövlət büdcəsindən, “Sosial yardım haqqında” Gürcüstan qanununa uyğun olaraq ödənilir. Etibar etməklə tərbiyə edilən üçün alınan sosial yardımın məbləğini hökumətin 28 iyul 2006-cı il tarixli 145 №-li qətnaməsi müəyyən edir, hansına əsasən, qeyri-qohumluq etibar etməklə tərbiyəyə yerləşdirilmiş sağlam uşaq üçün – ayda 450 lari, imkanları

məhdud olan benefisiar üçün isə - 600 lari məbləğində;qohumluq etibar etməklə tərbiyəyə qoşulmuş sağlam yetkinlik yaşına çatmamış şəxs üçün – ayda 200 lari, imkanları məhdud olan uşaq üçün isə - 300 lari məbləğindədir. Təxirəsalınmaz etibar etməklə tərbiyə təqdirində, dövlət bir benefisiara ayda 600 lari ödəyir.

## Dövlətin etibar etməklə tərbiyə üzrə yarımproqrama qoşulmuş uşaqlara qarşı hansı vəzifələri vardır?

Etibar etməklə tərbiyə edilən uşaqların hüquqi vəziyyətinin yoxlanılması, eləcə də qəbul edən ailə tərəfindən müqavilə ilə götürülən öhdəliyin yerinə yetirilməsinə monitorinqin həyata keçirilməsinə görə qəyyumluq və qayğı orqanı məsuliyyət daşıyır. Sosial işçi öz öhdəliklərini yerinə yetirmək məqsədilə, uşaq etibar etməklə tərbiyəyə verildikdən sonra bir ay ərzində, ən azı həftədə bir dəfə, əvvəlcədən razılaşdaraq və ya razılaşmayaraq, qəbul edən ailəyə getməli və uşağın hüquqi vəziyyətini öyrənməlidir. Benefisiar tərbiyə edilməsi üçün verildikdən bir ay sonra, sosial işçi qəbul edən ailəyə ən azı ayda bir dəfə gedir. Əgər sosial işçi etibar etməklə tərbiyə edilən üçün zərərli mühiti aşkar edərsə, o, regional şuraya təqdim etmək üçün müqaviləyə müddətindən əvvəl xitam verilməsi barədə rəyi hazırlayır.

## Reinteqrasiya üzrə yarımproqram nədir?

Reinteqrasiya üzrə yarımproqram regional şuranın qərarı əsasında, dövlət qağısı altına yerləşdirilmiş uşağın bioloji ailəsinə, qəyyumun/qayğı göstərənin yanına qaytarılmasını nəzərdə tutur. Reinteqrasiya prosesində ailənin sosial fəaliyyəti yüksəlməli, ailə güclənməli və uşağın dövlət qağısı altına qayıtması riski minimuma qədər azaldılmalıdır.

## Reinteqrasiya olunacaq uşaq kim ola bilər?

Reinteqrasiya üzrə yarımproqrama dövlət qayğısı altında, o cümlədən, uşaq evi və etibar etməklə tərbiyə üzrə yarımproqramda olan yetkinlik yaşına çatmamış şəxs qoşula bilər.

## Reinteqrasiya prosedurunu həyata keçirmək səlahiyyətinə hansı orqanlar malikdirlər?

**Regional Şura**: a) sosial işçinin rəyi əsasında uşağın reinteqrasiya məsələsini müzakirə edərək onun bioloji ailəsinə, mümkün qəyyumun/qayğı göstərənin yanına qayıtması/yerləşdirilməsi barədə qərarı qəbul edir; b) reinteqrasiya müavinətinin təyin edilməsi, dayandırılması, yenilənməsi və ya xitam verilməsi barədə qərarı qəbul edir.

**Yerli qəyyumluq və qayğı orqanı:** öz fəaliyyət ərazisində dövlət qayğısı altına yerləşdirilmiş bütün uşaqların bioloji ailəsini, mümkün qəyyumunu/qayğı göstərəni aşkar edir, onlar barədə məlumatı sistemləşdirir və reinteqrasiya olunmuş uşaqların vəziyyətinə monitorinqi həyata keçirir.

**Sosial işçi:** a) dövlət qayğısı altına yerləşdirilmiş uşağı, onun bioloji ailəsini və sosial mühiti qiymətləndirir; b) reinteqrasiyanın həyata keçirilməsi üçün müvafiq tövsiyələri hazırlayaraq regional şuraya təqdim edir; c) uşağın fərdi inkişaf planını işləyib hazırlayır; ç) reinteqrasiyadan sonra planla nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinə dəstək olur; d) hadisəni idarə edir və sənədləşdirir.

## Uşağın reinteqrasiya olunma imkanlarının müəyyən edilmə prosedurları

Uşağın reinteqrasiyasına qayğının göstərilməsi uşaq xüsusi müəssisəyə və ya etibar etməklə tərbiyə üzrə yarımproqrama yerləşdirildiyi gündən başlanılmalıdır. Sosial işçi mütəmadi olaraq dövlət qayğısı altına yerləşdirilmiş uşaqla və onun bioloji ailəsi ilə, onun gücləndirilməsi və valideynin bacarıqlarının yaxşılaşdırılması yolu ilə işləyir. Sosial işçi 6 ayda bir dəfədən gec olmayaraq, xüsusi müəssisəyə və ya etibar etməklə tərbiyə üzrə yarımproqrama yerləşdirilmiş bütün uşaqların reinteqrasiya imkanını qiymətləndirir. Qiymətləndirmə nəticəsində, müsbət rəy bioloji ailə, mümkün qəyyum/qayğı göstərən tərəfindən uşağın əsas ehtiyaclarının təmin edilməsi və zorakılıqdan qorunmasının təmin edilməsini nəzərə alaraq verilir.

## Benefisiarın fərdi inkişaf planı

Fərdi inkişaf planı sosial işçi tərəfindən tərtib edilmiş sənəddir, həmin sənəddə uşağın fiziki/əqli inkişafı və onun təhlükəsiz reinteqrasiya olunması məqsədilə qrafik şəklində yazılmış tədbirlər əks etdirilir. Bununla yanaşı, sosial işçi fərdi inkişaf planında ailənin güclənmə məsələlərini əks etdirir. Fərdi inkişaf planı regional şura tərəfindən təsdiq edilir.

## Uşağın reinteqrasiya olunması barədə müqaviləni hansı xüsusiyyətlər xarakterizə edir?

Reinteqrasiya barədə müqavilə üç il müddətinə, və ya uşaq yetkinlik yaşına çatana qədər müvafiq müddətlə bağlanılır. Müqavilə çərçivəsində uşaq, bioloji ailəsinin sosial-iqtisadi vəziyyətindən asılı olmayaraq, reinteqrasiya müavinəti ilə təmin edilir. Əgər müqavilənin müddəti keçdikdən sonra sosial işçi hesab edir ki, uşağın firavanlığını təmin etmək üçün ailənin müqavilənin uzadılmasına ehtiyacı vardır, o, regional şuraya müvafiq rəyi təqdim edir.

## Reinteqrasiya müavinətinin təyin etmə və verilmə qaydası

Reinteqrasiya müavinəti reinteqrasiya olunmuş uşağa təyin edilir, müavinət isə uşağın qanuni nümayəndəsinə verilir. Reinteqrasiya müavinəti müqavilə ilə müəyyən edilmiş müddətlə, hər ay verilir. Reinteqrasiya müavinəti sağlam uşaq üçün 90 lari, imkanları məhdud olan benefisiar üçün isə 130 lari təşkil edir.

## Reinteqrasiya olunmuş uşağın qanuni nümayəndəsinin hüquq və vəzifələri

**Reinteqrasiya olunmuş uşağın qanuni nümayəndəsi aşağıdakı hüquqlara malikdir:** a) reinteqrasiya müavinətini almaq; b) Gürcüstan qanunvericiliyinə uyğun olaraq, əlavə olaraq qeyri-pul faydasını və/və ya digər pul yardımlarını almaq; c) reinteqrasiya olunmuş uşaq dövlət qəyyumluğu/qayğısı altında olduğu zaman sosial paketin məbləğindən istifadə etmək.

**Reinteqrasiya olunmuş uşağın qanuni nümayəndəsinin aşağıdakı öhdəlikləri vardır:** a) reinteqrasiya olunmuş uşaq üçün zərərli şəraitin yaranması barədə dərhal agentliyə məlumat vermək; b) reinteqrasiya olunmuş uşağın həyatında baş vermiş aşağıdakı dəyişiklik barədə fakt aşkar edildikdən 5 gün müddətində agentliyə müraciət etmək: yaşayış yerinin və ya əlaqə məlumatının dəyişdirilməsi, ailə tərkibində dəyişikliklər, maddi vəziyyətin pisləşməsi, uşağa imkanları məhdud olan şəxs statusunun verilməsi/ləğv edilməsi, reinteqrasiya olunmuş uşağın qanuni nümayəndəsindən bir aya qədər müddətlə ayrılması ehtimalı, 1 ilə qədər müddətlə reinteqrasiya olunmuş uşağın qanuni nümayəndəsi ilə birlikdə ölkə daxilində, eləcə də ölkənin hüdudlarından kənara çıxması və ya həmin müddətlə ondan ayrılma ehtimalı barədə, uşağın müalicə və ya reabilitasiya məqsədləri üçün, qanuni nümayəndəsi səbəbindən reinteqrasiya olunmuş uşağın qanuni nümayəndəsi ilə 3 aya qədər müddətlə imkanının mövcud olmaması, uşağın hüquqlarını müdafiə etmək və ona müvafiq qaydada qayğı göstərmək.

## Reinteqrasiya hadisəsinin idarə edilməsi və monitorinqi necə həyata keçirilir?

Uşaq reinteqrasiya oldunduqdan bir ay ərzində, ən azı həftədə bir dəfə, sosial işçi, əvvəlcədən razılaşaraq və ya razılaşmayayaq, uşağın firavanlığını qiymətləndirmək, ailənin ehtiyaclarını müəyyən etmək və fərdi inkişaf planının yerinə yetirilməsini dəstəkləmək məqsədilə ailəyə gedir. Müqavilə qüvvədə olduğu müddətdə, sosial işçi ailəyə minimum ayda bir dəfə, zərurətdən irəli gələrək isə, bir neçə dəfə getməlidir.

Sosial işçi reinteqrasiya olunmuş uşağın tərbiyəsinə, sağlamlıq vəziyyətinə, inkişafına, təhsilinə, onun qanuni nümayəndəsi tərəfindən öhdəliklərin yerinə yetirilməsinə monitorinqi həyata keçirir. Bununla yanaşı, sosial işçinin funksiyasına uşağın qanuni nümayəndəsinə reinteqrasiya və ailənin gücləndirilməsi ilə əlaqədar olan məsələlər barədə konsultasiyanın verilməsi daxildir.

**Etibar etməklə tərbiyə və reinteqrasiya üzrə yarımproqrama qoşulmuş uşaqların hüquqlarını müdafiə edən sənədlər -** Gürcüstan Konstitusiyası, BMT-nin Uşaq hüquqları konvensiyası (CRC), BMT-nin Uşaqlara alternativ qayğı barədə rezolusiyası (A/64/434), Övladlığa götürülmə və etibar etməklə tərbiyə haqqında qanun, “Reinteqrasiya müavinətinin təyin edilməsi, dayandırılması, yenilənməsi və xitam

verilməsi qaydası və şərtləri, eləcə də onun verilməsi ilə əlaqədar olan digər münasibətlərin müəyyən edilməsi haqqında” (№01-20/N, 20/03/2014), “Etibar etməklə tərbiyə formaları və prosedurlarının təsdiq edilməsi barədə” (№51/N, 26/02/2010) Gürcüstan Əmək, sağlamlıq və sosial müdafiə nazirinin əmrləri.

**Gürcüstan xalq müdafiəçisi uşaq hüquqlarını müdafiə etmək üçün – xalq müdafiəçisinə necə müraciət etməliyəm? -** uşaq hüquqlarının müdafiə edilməsi Gürcüstan xalq müdafiəçisi aparatının prioritetli istiqamətlərindən biridir. Qeyd edilənləri həyata keçirmək üçün aparatda Uşaq Hüquqları Mərkəzi fəaliyyət göstərir, mərkəz Gürcüstanın bütün ərazisində yetkinlik yaşına çatmamış şəxslərin hüquqi vəziyyətinə monitorinqi həyata keçirir. Xalq müdafiəçisi aparatına müraciət etmək hüququna Gürcüstan vətəndaşı, xarici ölkə vətəndaşları və vətəndaşlığı olmayan yetkinlik yaşına çatmamış şəxslər malikdirlər, hansılar hesab edirlər ki, dövlət/yerli özünüidarəetmə orqanları tərəfindən onların hüquq və/və ya əsas azadlıqları pozulmuşdur, və ya istənilən üçüncü şəxs (o cümlədən, yetkinlik yaşına çatmış şəxs) malikdir, hansına uşağın hüququnun/əsas azadlığının ehtimal edilən pozulması barədə məlum olmuşdur.

Gürcüstan Xalq Müdafiəçisi Aparatı tərəfindən göstərilən xidmət pulsuzdur və məxfilik və qərəzsizlik prinsiplərinə riayət etməklə həyata keçirilir.

საქართველოს სახალხო დამცველი
Gürcüstan Xalq Müdafiəçisi


TBİLİSİ
Nino Ramişvili küçəsi 6
Tel.: 0322 23 44 99
Tel.: 0322 91 38 14

BATUMI
Mazniashvili küçəsi 9
Tel.: 0422 27 05 44
Mob.: 577 50 52 31

KUTAİSİ
Rustaveli küçəsi 18
Tel.: 0431 25 33 50
Mob.: 577 55 33 81

ZUQDİDİ
Kostava küçəsi 58
Tel.: 0415 22 36 11
Mob.: 577 50 52 34

QORİ
Sameba küçəsi 1
Tel.: 0370 27 05 49
Mob.: 577 78 27 42

AXALKALAKİ
Çavçavadze küçəsi 4
Tel.: 0362 22 32 83
Mob.: 577 12 27 70; 577 12 27 71

MARNEULİ
Rustaveli küçəsi 51
Tel.: 0357 22 19 70
Mob.: 593 17 18 55

TELAVİ
Çolokaşvili küçəsi 36
Tel.: 0350 27 99 27
Mob.: 591 88 35 38

**www.ombudsman.ge**
**info@ombudsman.ge**


Gürcüstan Daxili İşlər Nazirliyi – Patrul Polisinin qaynar xətti – “112”.
İHHŞ Sosial Xidmət Agentliyi – qaynar xətt – “1505”.
Gürcüstan Təhsil və Elm Nazirliyi – qaynar xətt – 0322 20 02 20

unicef
unite for children


BMT Uşaq Fondunun maliyyə dəstəyi ilə nəşr edilib